# QARABAĞIN TORPAQ EHTİYATLARI, BƏRPASI VƏ YAXŞILAŞDIRILMASI

**Nasir Yolçiyev, Lalə Qurbanova**

*Qərbi Kaspi Universiteti*

Qarabağın torpaq və bitki örtüyünün yaxşılaşdırılması və bərpası üçün növbəti metodların tətbiqini məqsədəuyğun hesab etmək olar:

1. Kənd təsərrüfatı istiqaməti: pozulmuş ərazilərdə əkin aparmaq, bağ salmaq, çəmən və otlaq kimi istifadə etmək;
2. Meşə təsərrüfatı istiqaməti: a) məqsədyönlü meşəliklər (torpaqqoruyucu, sutənzimləyici) salmaq; b) istismar əhəmiyyətli meşəlik sahələri yaratmaq;
3. Yaşıllaşdırma və səhiyyə-gigiyena istiqamətli istirahət zonası yaratmaq, park yaşıllığı salmaq, ətraf mühiti çirkləndirən tullantı layların konservasiyası və ya yaşıllaşdırma;
4. Müxtəlif təyinatlı su hövzələri (su anbarları, nohur, sututar və s.) yaratmaq;
5. Pozulmuş ərazilərdə yaşayış və digər tikililər layihələndirmək.

Kənd təsərrüfatının stabil inkişafının təmin edilməsi, səmərəli suvarma və digər aqrotexniki tədbirlərin düzgün təşkil olunması, otlaqların normadan artıq yüklənməməsi torpaqların müxtəlif deqradasiya proseslərinin qarşısının alınmasına zəmin yaradır.